1_Layout 1 12.02.2025 15:47 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 3 (691)

14 fevral 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# MÜSTƏQİLLİYİN UĞUR FORMULU: QƏTİYYƏTLİ LİDER VƏ QÜDRƏTLİ DÖVLƏT

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Müstəqilliyin uğur formulu: qətiyyətli lider və qüdrətli dövlət" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Böyük güclərin toqquşan maraqları səbəbindən bu gün bir çox ölkənin mürəkkəb çağırışlarla üz-üzə qaldığı müasir dünyamızda Azərbaycan bütün çətinliklərə baxmayaraq, strateji inkişaf yoluna davam edir, müstəqillik dövründə qazandığı nailiyyətləri möhkəmləndirərək onların sırasını yeni uğurlarla daha da genişləndirir. Bunun təməlində dayanan əsas amil Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü müstəqil siyasətdir.

Dövlətimizin başçısının siyasətində milli maraqlar əsas yer tutur. Bu, xüsusilə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunması məsələsində özünü göstərir. 2020-ci ildə Vətən müharibəsində əldə edilmiş qələbə və 2023-cü ilin sentyabrında aparılan qısamüddətli antiterror tədbirləri nəticəsində Qarabağın tam şəkildə azad olunması və Azərbaycanın suverenliyinin bərpası bu siyasətin möhtəşəm nəticəsidir.

### Bölgədə sülhün təminatçısı

Geostrateji maraqların kəsişdiyi kifayət qədər mürəkkəb coğrafiyada yerləşmiş Azərbaycan heç bir siyasi konfiqurasiyada tərəf olmamaq üçün başqa ölkələrlə və beynəlxalq təşkilatlarla müstəqil, tarazlı xarici siyasət xəttinə üstünlük verir. Ölkəmiz NATO üzvü olan Türkiyə ilə strateji tərəfdaşlıq əlaqələrinə malikdir. Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində fəal iştirak edir, Türkiyə ilə strateji müttəfiqlik münasibətləri və digər türk dövlətləri ilə əməkdaşlığın gücləndirilməsi Prezident İlham Əliyevin siyasətində xüsusi yer tutur. Eyni zamanda Azərbaycan digər qonşularla da bərabərhüquqlu normal münasibətləri davam etdirir. Bu siyasət həm enerji məsələlərində, həm geosiyasi baxımdan, həm də iqtisadi-ticari əlaqələrdə ölkəmizə mühüm üstünlüklər qazandırır.

Azərbaycanın həyata keçirdiyi müstəqil siyasətdə regional sülh və təhlükəsizlik təşəbbüsləri çox mühüm rol oynayır. Prezident İlham Əliyev bir çox müsahibəsində Cənubi Qafqazda sabitliyin təmin edilməsində Azərbaycanın fəal rolunu qeyd edir. Ölkəmizin yürütdüyü müstəqil siyasət xətti yerləşdiyimiz bölgədə təhlükəsizlik, qarşılıqlı əməkdaşlıq, dayanıqlı inkişaf mühitinin təmin olunması üçün çox mühümdür. Çünki ölkəmizin gücü, beynəlxalq aləmdəki yüksək nüfuzu, eyni zamanda dövlətimizin rəhbəri İlham Əliyevin müasir dünya siyasətindəki mötəbər mövqeyi Cənubi Qafqazda xarici maraqların uzlaşdırılmasında, yeni qarşıdurma cəhdlərinin dəf edilməsində həlledici rol oynayır.

### Azərbaycan və yeni dünya nizamı

Prezident İlham Əliyevin gerçəkləşdirdiyi effektiv xarici siyasətin əsasında isə Azərbaycan xalqının maraqlarına əsaslanan tarazlı və güc mərkəzlərindən eyni məsafədə duran, öz müstəqilliyinə, potensialına və resurslarına arxalanan davamlı və sabit kurs durur. Rəsmi Bakının beynəlxalq hüquqa və prinsiplərə əsaslanan siyasəti ərazilərimizin bərpa edilməsindən sonra da dəyişməz qalır. Məhz bu səbəbdən dünya Azərbaycan Liderini sözübütöv və stabil tərəfdaş qismində qəbul edir. Bu amil fərqli dövlətlərin, iri maliyyə korporasiyalarının və transmilli şirkətlərin Azərbaycanla rahatlıqla işbirliyinə nail olmalarının başlıca səbəbidir.

Azərbaycan elə bir müstəqillik ölçüsünə nail olmuş dövlətdir ki, qlobal güclərin maraqları fonunda öz geosiyasətini müəyyən etməyə və suveren gündəmi ilə fəaliyyət göstərməyə başlayıb.

Dövlətimizin başçısı hesab edir ki, ölkəmizin bu addımları dünya tərəfindən ciddi şəkildə izlənilir və təhlil edilir. Çünki dünya tarixində öz ərazi bütövlüyünü öz gücü ilə bərpa edən ikinci ölkə olmayıb. Bütün təzyiqlərə, təhdidlərə və təhlükələrə baxmayaraq, bunu biz etmişik: "Müstəqil siyasət aparmaq iqtidarında olan ölkələrin sayı da o qədər də çox deyil... Baxın Avropa ölkələrinə, onlar güc mərkəzlərindən nə qədər asılıdır və bəzən başqa faktorlardan. Ona görə müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr çox deyil. Ona görə bizim bu sahədəki siyasətimiz haqlı olaraq bizə rəğbəti daha da artırır və mən əminəm ki, yeni dünya nizamı tam formalaşma prosesinə düşəndə, o cümlədən Azərbaycanın mövqeyi də nəzərə alınacaq, ən azı Cənubi Qafqazda və Xəzər hövzəsində və biz buna hazır olmalıyıq".

### Qlobal çağırışlar

Bir dövlətin əsl müstəqilliyi onun təhlükəsizliyinə xələl gətirən, xalqının mənafelərinə zərər vura biləcək amilləri neytrallaşdırmaq bacarığından irəli gəlir. Ancaq müstəqillik təkcə müdafiə olunmaqdan ibarət deyil. Əsl suveren xarici siyasət həm də dövlətin öz maraqlarını ehtiva edən xəttini formalaşdıra bilmək bacarığıdır. Azərbaycanın sərgilədiyi siyasi kurs onun dünya arenasında digərlərinin maraqlarını nəzərə almaqla siyasətini quran dövlət statusunun çərçivələrini aşaraq öz gündəmini müəyyən edə bilməsindən ibarətdir. Azərbaycan bu gün böyük nailiyyətlərə imza atır. Hazırkı dünyada bu, olduqca nadir hallarda rastlaşılan nümunədir. İmperiyanın caynaqlarından cəmi üç onillikdir ki, qurtulmuş bir xalqın qurduğu dövlət qlobal problemlərin həlli prosesinə, yaxud dünya tarixinin acı və təəssüf doğuran səhifələri olan müstəmləkəçiliyin fəsadlarının aradan qaldırılmasına öz töhfəsini verir.

### Ədalət uğrunda

Burada bir fakt da qeyd olunmalıdır ki, Ermənistanın Qərbi Azərbaycandan deportasiya etdiyi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtmaq hüququnun təmin olunması mühüm məsələdir. Onların bu hüququnun qorunması, Qərbi Azərbaycandan olan soydaşlarımızın öz ata-baba yurdlarına dönüşü sülh proseslərinə müsbət təsir göstərəcəkdir. Dövlətimizin başçısı bu məqamı müsahibələrində də həssas məsələlərdən biri kimi diqqətdə saxlayır, ölkəmizin bununla bağlı mövqeyini aydın şəkildə nəzərə çatdırır.

Azərbaycanın hər hansı ölkənin beynəlxalq yurisdiksiya ilə tanınmış ərazilərində gözü yoxdur. Dövlətimizin həyata keçirdiyi müstəqil siyasətin, atdığı addımların hər bir məqamı beynəlxalq normalara, ədalətə əsaslanır. Azərbaycan Vətən müharibəsindəki qələbəsi ilə BMT-nin illərlə havadan asılı qalan 4 qətnaməsini özü, ordumuzun gücü ilə icra etdi. İşğalçı qüvvələri suveren ərazilərimizdən qovub çıxardı. Bununla böyük bir ədalətsizliyə son qoydu.

Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımıza qarşı da çox böyük ədalətsizlik olub. Bu hal aradan qaldırılmalı, onların öz doğma yurdlarına təhlükəsiz qayıdışı təmin edilməlidir. Hazırda bu, Ermənistanın beynəlxalq hüquq normalarına əməl etmək, regionda əbədi sülhə nail olmaq üçün görməli olduğu əsas işlərdən biridir.

Əfsuslar olsun ki, Ermənistan bununla bağlı hüquqi və mənəvi öhdəliklərini yerinə yetirmək əvəzinə, havadarları kimi çıxış edən bəzi ölkələrin dəstəyi ilə silah tədarükünü davam etdirməkdədir. Azərbaycan Prezidenti beynəlxalq münasibətlərdə qətiyyətli mövqeyini ortaya qoyaraq bəzi Qərb ölkələrinin Ermənistana silah tədarükünü yolverilməz adlandırır. Azərbaycanın təhlükəsizliyinə təhdid yaradan bu cür addımlara qarşı sərt mövqe sərgiləyir.

Ümumən, Azərbaycanın tutduğu yolun əsas prioriteti dövlətin müstəqilliyini qorumaq və heç bir xarici gücün təsiri altına düşməməkdir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycan öz qərarlarını müstəqil şəkildə qəbul edir və xarici təzyiqlərə boyun əymir. Bu, sadəcə bəyanat deyil, ölkə rəhbərliyinin son onilliklərdə həyata keçirdiyi siyasəti diqqətlə izləyən hər kəsin müşahidə etdiyi tarixi reallıqdır.

Prezident İlham Əliyev ölkəmizin sülhpərvər mövqeyi, bu istiqamətdə həyata keçirdiyi tarixi missiya ilə yanaşı, Azərbaycanın hərbi gücünün artırılmasını da prioritet hesab edir. Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra da bu istiqamətdə işlər davam etdirilir, Azərbaycan Silahlı Qüvvələri ən müasir texnologiyalarla təchiz olunur, daha da gücləndirilir.

Dövlətimizin müstəqilliyini möhkəmləndirmək və dünyadakı mənafeyini daha rəşadətlə qoruyub təmin etmək istiqamətindəki çalışmaları daim davam edəcək. Bunun üçün tələb olunan bütün resurslar mövcuddur - müdrik xarici siyasət, güclü iqtisadiyyat, xalqın dövləti ilə birliyi və qətiyyətli Lideri. Prezident İlham Əliyevin dediyi kimi, dövlətlər zəif olmur, onların rəhbərləri zəif olur. Qələbə qazanmaq bacarığı isə yalnız güclü lideri olan dövlətlərə və xalqlara nəsib ola bilər!

# Daxili işlər naziri Vilayət Eyvazov Qusar rayonunda növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevral ayının 6-da və 7-də Qusar Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Qusar rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Qusar Rayon Polis Şöbəsində Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 335 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 263 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.





**DİN-in Mətbuat xidməti**

2_Layout 1 12.02.2025 15:48 Page 1



# DAXİLİ İŞLƏR NAZİRİ XİDMƏTƏ QƏBULLA BAĞLI NÖVBƏTİ SIRA BAXIŞI KEÇİRİB



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 4-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 203 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

# “XÜSUSİ TƏYİNATLILARIN FƏRDİ HAZIRLIĞININ ARTIRILMASI DİQQƏTDƏ SAXLANILIR”





Silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin həyata keçirdiyi xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir. Hər zaman sayıqlıq və əzmkarlıq nümayiş etdirən dəstənin şəxsi heyəti vəzifələrinin öhdəsindən layiqincə gəlir.

İlin istənilən fəslində, müxtəlif relyefli ərazilərdə çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları digər bölmələrin proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər



fiziki güc və möhkəm iradə tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq nümayiş etdirirlər.

Dəstə komandiri mayor Elçin Babayev bildirdi ki, döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji tərbiyələrinin, dünyagörüşlərinin düzgün formalaşmasına xüsusi önəm verilir.

Dəstə komandiri əlavə etdi ki, hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılmasına diqqət yetirilir, real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir. Yüksək döyüş hazırlığı ilə yanaşı, nizam-intizamın və sayıqlığın artırılması nəzarətdə saxlanılır. Mayor E.Babayev hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının təkmilləşdirilməsində də dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Malik Quliyevin əməyini vurğuladı.

Mayor M.Quliyev qeyd etdi ki, aparılan tərbiyə işi tədbirlərinin əsasını hərbi intizamın möhkəmləndirilməsi, hərbi-vətənpərvərlik ruhunun aşılanması və kollektivdə yoldaşlıq münasibətlərinin inkişaf etdirilməsi təşkil edir.

Komandir müavini yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan baş leytenant İsmayıl Qasımov, gizirlər Vəfadar Əliyev, Şamil Əhmədov, Cabir Əliyev, baş çavuş Səhman Müseyibovun adlarını çəkdi, onların yoldaşlarına nümunə olduqlarını söylədi.

**kapitan Xədicə Hacızadə**

# DÖYÜŞ RUHU VƏ HAZIRLIĞI YÜKSƏK OLAN DƏSTƏ

16075 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsi keçən ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə fərqlənən qabaqcıl bölmədir.

Dəstə komandiri mayor Araz Sadıqov yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkarlığın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. O, xidmətini daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil etdiyini nəzərimizə çatdıraraq, keçirilən praktiki və nəzəri məşğələlərin keyfiyyətli, tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini sözlərinə əlavə etdi.

Hərbçilər arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də yeni gəlmiş hərbi qulluqçuların kollektivə uyğunlaşmaları da önəm verilən əsas məsələlərdir. Bu baxımdan xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Əli Ağayevin fəaliyyəti müsbət xarakterizə edilir.





Mayor A.Sadıqov dəstənin ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, həmçinin funksional vəzifələrinin öhdəsindən layiqincə gələn, digər hərbi qulluqçulara da nümunə olan kapitan Vasim Bayramovun, baş leytenant Elvin Həsənovun, baş gizir Mübariz Cabbarovun, baş çavuşlar Yusif Bayramovun, Nazir Cəfərovun və çavuş Eltun İsgəndərovun adlarını çəkdi.

Dəstə komandiri hərbi xidmətdə əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə, habelə qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**kapitan Şahin Cəfərzadə**

# ÇAĞIRIŞÇILARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB



Fevralın 8-də Daxili Qoşunların Bakı şəhərində yerləşən “N” saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.

Hərbi rituala uyğun olaraq hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələrinin yad edilməsi ilə başlayan mərasimdə Dövlət Himni ifa olunub. Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.





Mərasimdə çıxış edən hərbi hissə komandiri polkovnik Bəhruz Kazımov əsgərlərə Vətənə, dövlətə və Ali Baş Komandana, hərbi anda sadiq olmalarını, nümunəvi, intizamlı xidmət etmələrini, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş hazırlıqlarını daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmalarını tövsiyə edib.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən gənc əsgərlərin qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, həmçinin Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan gənclərimizin sədaqət hissi ilə döyünən qəlblərinin hər zaman Vətən eşqi ilə alovlanacağına, xidməti-döyüş tapşırıqlarının daha keyfiyyətlə yerinə yetirilməsində öz fədakar xidmətlərini əsirgəməyəcəklərinə, eləcə də Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacaqlarına, dövlətçiliyimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişaf və tərəqqisi naminə uğurlar qazanacaqlarına əminlik ifadə olunub.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# QARŞIYA QOYULAN TAPŞIRIQLAR VAXTINDA VƏ DÜZGÜN İCRA EDİLİR

17077 saylı hərbi hissənin qərargah rəisinin şəxsi heyətin uçotu üzrə köməkçisi leytenant Türkan İbrahimova nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçudur. O, 2016-cı ilin sentyabr ayından Daxili Qoşunların sıralarındadır. 2010-2015-ci illərdə Sumqayıt Dövlət Universitetinin Filologiya fakültəsində ali təhsil alıb. “Gizir” hərbi rütbəsi ilə xidmətə başlayan hərbi qulluqçumuz əvvəl qərargahın məsul icraçısı (şəxsi heyətin uçotu üzrə) vəzifəsində xidmət edib. 2023-cü ilin may ayında isə “leytenant” hərbi rütbəsi verilməklə, hazırkı vəzifəyə təyin olunub.

Leytenant T.İbrahimova görülən işlər barədə məlumat verərkən bildirdi ki, müvafiq təlimatın tələblərinə uyğun olaraq, hərbi hissədə şəxsi heyətin qeydiyyatına, uçotun təşkil edilməsi üzrə sənədləşmənin aparılmasına cavabdehlik daşıyır. Nizami hissə üzrə əmr layihəsi, şəxsi heyət barədə müəyyən edilmiş məlumatlar vaxtlı-vaxtında hazırlanır, hərbi hissə komandirinin uçuş üzrə müavini-qərargah rəisinə məruzə edilir.



Söhbət zamanı o da məlum oldu ki, leytenant T.İbrahimova gündəlik olaraq tabeliyində olan hərbi qulluqçulara funksional vəzifələrinə uyğun tapşırıqlar verir və icra vəziyyətinə xüsusi diqqət yetirir. O, baş çavuşlar Aysel Seyidovanı, Cavid Mahmudovu, çavuşlar Xəyalə Cəfərovanı və Tutu Hüseynovanı müsbət xarakterizə edərək, onların xidmətə məsuliyyətlə yanaşdıqlarını bildirdi.

Bir sözlə, qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirmək və nöqsanlara yol verməmək üçün şəxsi heyət bilik və bacarığını artırmaq istiqamətində səylə çalışır.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 12.02.2025 17:17 Page 1



# XX ƏSRİN QANLI FACİƏSİ - XOCALI SOYQIRIMI

Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl, Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl – 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.




Xankəndidən 10 kilometr cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında strateji məntəqədə yerləşən, Dağlıq Qarabağın yeganə hava limanının yerləşdiyi Xocalı fevralın ikinci yarısından başlayaraq, Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə götürülüb. Dinc sakinlərin dəstə halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin qarşısı alınıb.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq, mühasirədəki Xocalı şəhərinin dinc əhalisinin üzərinə ağır hərbi texnika yeridib, onlara misli görünməmiş qəddarlıqla divan tutub, şəhər barbarcasına yerlə-yeksan edilib. Yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi naməlumdur.

Ümummilli Lider Heydər Əliyev Xocalının o dövrdəki ölkə rəhbərliyi tərəfindən tamamilə müdafiəsiz buraxılmasına kəskin etiraz edərək deyib: "O zamankı iqtidarın Azərbaycanın milli müstəqilliyinə və xalqımıza qarşı xəyanətkar mövqeyi, öz konstitusion vəzifə borcuna cinayətkar laqeydliyi, ardı-arası kəsilməyən siyasi hakimiyyət oyunları, respublikada baş alıb gedən anarxiya və başıpozuqluq, ayrı-ayrı siyasətbazların məkrli şəxsi ambisiyaları bu tarixi faciənin törədilməsinə birbaşa şərait yaratmışdır. Uzun müddət dörd tərəfdən düşmən əhatəsində taleyin ümidinə buraxılmış vətəndaşlarımızın imdad dolu harayı qulaqardına vurulmuş, Xocalının xilas olunması üçün real imkanların mövcudluğuna baxmayaraq, günahsız əhali məqsədyönlü şəkildə bu milli qırğına sürüklənmişdir. Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır".

Xocalı şəhərində törədilmiş cinayətlərin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada ifadə olunmuş definisiyaya tam uyğun gəldiyini sübut edir. Qabaqcadan planlaşdırılmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilib. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soyub, müxtəlif əzalarını kəsib, körpə uşaqların gözlərini çıxarıb, hamilə qadınların qarınlarını yarıb, insanları diri-diri torpağa basdırıb və ya yandırıb, meyitlərin bir qismini minalayıblar. Yanan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməyib, dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetiriblər.

Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır.

Bəşəri cinayət olan Xocalı soyqırımının təşkilatçıları Ermənistan Respublikasının siyasi və dövlət rəhbərliyi, birbaşa icraçıları isə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətidir.



Xocalı soyqırımı Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü zamanı doğma torpağının müdafiəsinə qalxmış xalqımızı sarsıtmaq, onun mübarizə əzmini qırmaq, Dağlıq Qarabağın azərbaycanlı əhalisinin bir hissəsini məhv etmək niyyəti ilə törədilmiş silsilə kütləvi qırğın aktlarından biridir. Bunu Xocalı faciəsindən təqribən ay yarım sonra – aprelin 8-də Kəlbəcər rayonunun Ağdaban kəndinin işğalı zamanı qabaqcadan hazırlanmış plan əsasında həyata keçirilmiş kütləvi qırğın aktında xüsusi amansızlıqla, içərisində uşaqlar, qadınlar və qocalar olmaqla, 67 nəfər dinc sakinin qətlə yetirilməsi, onlarla şəxsin girov götürülməsi, itkin düşməsi, kəndin tamamilə yandırılması da sübut edir. Bu tədbirlərin davamı kimi 1992-ci il avqustun 28-də Goranboy rayonunun Ballıqaya kəndində daha bir amansız cinayət - Ballıqaya qətliamı törədilib. Nəticədə 24 nəfər azərbaycanlı mülki şəxs amansızlıqla qətlə yetirilib, onların arasında 6 azyaşlı uşaq, o cümlədən 6 aylıq körpə də olub, 3 azyaşlı uşaq isə hər iki valideynini itirib. Öldürülmüş dinc insanların bəzilərinin meyitləri yandırılıb. Ballıqayada 93 yaşında qoca qadına da aman verilməyib, ümumilikdə öldürülənlərin əksəriyyəti uşaqlar, qadınlar və qocalar olub.

Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarına əsasən, 26 fevral Xocalı Soyqırımı Günü elan edilib.

Azərbaycan parlamenti 2017-ci il fevralın 24-də 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni silahlı dəstələri və keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınının Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 24 fevral, 1995-ci il 24 fevral, 2007-ci il 27 fevral və 2012-ci il 24 fevral tarixli qərarları ilə soyqırımı (genosid) cinayəti kimi qiymətləndirilməsini bir daha təsdiq edib.

Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları Xocalı şəhərində soyqırımı aktının törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilməsi və cinayət məsuliyyətinə cəlb olunması üçün tədbirləri davam etdirir.

Ümummilli Lider Heydər Əliyev Xocalı soyqırımı haqqında deyib: "Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir".

Bununla əlaqədar Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər ildən-ilə daha da genişlənir. Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində aparılan sistemli işin nəticəsidir ki, bəzi beynəlxalq təşkilatların və bir sıra ölkələrin parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırım aktı olduğu təsdiq edilib.

2023-cü ilin sentyabr ayının 19-dan 20-dək Qarabağ bölgəsində Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı şəhərinin işğalına son qoyulub. Bu gün Xocalıda üçrəngli bayrağımız dalğalanır, yerli sakinlər öz yurdlarına dönürlər, soyqırım qurbanı olan xocalıların ruhları şaddırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə hər il Xocalı soyqırımına həsr olunan genişmiqyaslı tədbirlər keçirilir.

**President.az saytının materialları əsasında hazırlanıb.**

*Qazilərimiz*

# LƏYAQƏTLİ XİDMƏT YOLU VƏ ŞƏRƏFLİ DÖYÜŞ SINAĞI

Tarix boyu hərbi zəfərin qazanılması vətənpərvərlik əqidəsinə sadiq qalan, döyüş ruhunu qoruyub saxlayan, şəhidlik və qazilik məqamlarını uca tutan, vahid amal uğrunda birliyi sarsılmayan xalqların taleyinə yazılıb. Azərbaycan xalqı bu qüdrətə sahibdir. Biz doğma torpaqlarımızın faşist ideologiyasının daşıyıcısı olan Ermənistan tərəfindən işğalı gerçəkliyi ilə heç vaxt barışmamışıq. Xalqımızın qeyrətli və mübariz övladları Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi, o cümlədən antiterror tədbirləri zamanı erməni işğalçılarına qarşı qəhrəmanlıqla vuruşublar. Vətən müharibəsində misilsiz qələbə, 24 saatdan az vaxtda uğurla sona çatan antiterror tədbirləri təcavüzkarın darmadağın olunmasını, ərazi bütövlüyümüzün bərpasını təmin edib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti 2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində keçirilmiş antiterror əməliyyatında qarşıya qoyulan döyüş tapşırığını mətinliklə yerinə yetirib. Antiterror əməliyyatında layiqincə iştirak edərək ağır yaralanan və sağlamlığını itirən hərbi qulluqçularımızdan biri də istefada olan əsgər Mirzəyev Samir Qurban oğludur.

O, 1992-ci il oktyabrın 30-da Şəki rayonunun yaşayış məntəqələrindən olan Cumakəndə (əvvəlki adı Cumay) doğulub. Qurban Mirzəyev və Mirvari Mirzəyevanın üç övladından ortancılıdır. Bacısı Samirə ondan yaşca böyük, qardaşı Azər isə kiçikdir. Mehriban, qayğıkeş, halal zəhməti ilə dolanan bir ailədə valideynləri onu ləyaqətli övlad kimi yetişdiriblər.

Doğma kəndindəki tam orta məktəbi bitirib. Şagird olaraq tarix, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənləri ilə daha çox maraqlanıb. Müəllimləri onun vətənpərvər ruhda tərbiyə olunmasına öz gərəkli töhfələrini veriblər. Məktəbdə təhsil aldığı dövrdən hərbçi peşəsinə rəğbət bəsləyib. Yeniyetmə vaxtından idmana həvəslə yanaşıb, fiziki hazırlığını möhkəmləndirib.

Orta məktəbdə təhsilini başa vurduqdan sonra bir müddət inşaat sahəsində işləyib və ilk əmək təcrübəsini toplayıb.



2010-cu ilin oktyabr ayında Samir müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində hərbi and içib. Həmin vaxt rayonun Alxanlı kəndi istiqamətindəki düşmənlə təmas xəttində torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanıb. Ön mövqedə səngərlərdən işğal altındakı ərazilərimizin necə viran qoyulduğunu görən Samirin ermənilərə qarşı nifrəti və qisas hissi daha da güclənib. Hərbi xidmət borcunu layiqincə yerinə yetirən gənc 2012-ci ilin aprel ayında ordu sıralarından ehtiyata buraxılıb.

Hərbi xidmətdən qayıtdıqdan sonra Samir yenə də inşaatda çalışıb, zəhmətə qatlanıb, ailəyə maddi köməyini əsirgəməyib, doğmalarına hər cəhətdən dayaq olub. Ancaq hərbi xidmətə marağı və bu peşəyə rəğbəti gələcək həyatı ilə bağlı vacib qərar verməsinə zəmin yaradıb. Beləliklə, müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmaq üçün Daxili Qoşunların komandanlığına müraciəti müsbət cavablandırılıb. 2017-ci ilin iyun ayından etibarən 17072 saylı hərbi hissənin tərkibində hərbi xidmətə başlayıb. Xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcı-sanitar və atıcısı vəzifələrində xidmət keçib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub. Silahdaşlarının hörmətini qazanıb. Nümunəvi xidmətinə görə dəfələrlə mükafatlandırılıb. Praktiki təlimlərdə və məşğələlərdə hərbi biliklərə fəal şəkildə yiyələnib, təhkim olunan silahın, habelə xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətlərini mükəmməlcəsinə mənimsəyib. Funksional vəzifələrinin icrasında məsuliyyət nümayiş etdirib.

Ağstafa rayonundakı Keşikçidağ məbədinin yerləşdiyi ərazidə ictimai təhlükəsizliyin qorunması üzrə xidmətə cəlb olunub. Koronavirus pandemiyası dövründə Gəncə şəhəri və Şəmkir rayonunda karantin rejiminin təmin edilməsi ilə bağlı xidmətə çıxıb. Verilən tapşırıqların öhdəsindən bacarıqla gəlib.

44 günlük Vətən müharibəsi zamanı Samir Gəncə, Naftalan şəhərlərində, Daşkəsən, Şəmkir və Gədəbəy rayonlarında qurulan komendant postlarında xidmət aparıb. Vətəndaşlarımızın təhlükəsizliyinin mühafizəsində sayıqlıq göstərib. Gəncə şəhəri erməni ordusu tərəfindən şiddətli artilleriya atəşinə məruz qalıb. Çoxlu sayda dinc sakin həlak olub və xəsarət alıb. Həmin vaxt şəhərdə olmuş hərbi qulluqçularımız və ailə üzvləri də təhlükəli anlar yaşayıblar. Samirin şahidi olduğu düşmənin bu azğınlığı və vəhşiliyi onun yaddaşında silinməz iz qoyub, döyüş ruhlu hərbçi komandirlərinə ön cəbhəyə getmək istədiyini deyib. Həmçinin silahdaşları da savaşa atılmağa hazır olduqlarını söyləyiblər. Ancaq müharibə getdiyi günlərdə belə bir zərurət yaranmayıb. Vətən müharibəsində parlaq qələbəmiz onu da ürəkdən sevindirib və qürurlandırıb.

İşğalına son qoyulan Şuşa, Laçın şəhərləri, Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd, Kəlbəcər rayonları, habelə Tərtər rayonunun Suqovuşan qəsəbəsində təhlükəsizlik tədbirlərinin təmin olunmasında peşəkarcasına iştirak edib.

17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin post-patrul xidməti bölməsinin komandirinin müavini kapitan Eltun Orucov, qazi, ehtiyatda olan gizir Səxavət Zeynalov, xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun yarımqrup komandiri baş çavuş Famil Mirzəyev, götürmə qrupunun atıcısı çavuş Şirzad Əhmədzadə, xüsusi vasitələrin tətbiqi qrupunun baş atıcısı baş əsgər Nicat Mamedov, qazilər, ehtiyatda olan çavuş Şamil İsrəfilov, ehtiyatda olan əsgər Ramin Əliyev Samirin xidmət və döyüş yolu haqqında suallarımı cavablandırdılar. Onların verdikləri məlumata görə, Samir hərbi intizamı, özünə qarşı tələbkarlığı, əzmkarlığı, yoldaşlarına diqqəti, səliqə-sahmanı, peşəsinə can yandırması, döyüş hazırlığını təkmilləşdirməsi ilə fərqlənən hərbi qulluqçu olub. Hərbçi adına xələl gətirən hərəkətlərə yol verməyib. Mürəkkəb vəziyyətlərdə üzləşdiyi çətinliklərə dözümlə yanaşıb.

Müsahiblərim olan zabit, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları və qazilər bildirdilər ki, 2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində keçirilmiş antiterror əməliyyatında Samir fədakarcasına iştirak edib. Dəstə komandiri polkovnik-leytenant Rəşad Hüseynovun rəhbərliyi altında şəxsi heyət sentyabrın 20-nə keçən gecə Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndinə (hazırda bu kənd Ağdərə rayonuna daxildir) göndərilib. Öncə avtomobillərlə hərəkət zamanı yolda düşmənin ilk pusqusuna düşüblər. Hərbi qulluqçularımız hücumu dəf edərək ermənilərin atəş nöqtələrini susdurublar. Samir bu döyüşdə özünü itirmədən cəsarətlə vuruşub, mövqeləndiyi yerdən işğalçılara atəş açaraq itkiyə uğradıb. O, sağ qolundan güllə və qəlpə yaraları alıb. Döyüşçü yoldaşları ona ilk tibbi yardım göstəriblər. Birinci pusqu zamanı yaralanan hərbi qulluqçular arxaya çıxarılıblar. Digər silahdaşları təyin edilmiş hüdudlar istiqamətində yolla piyada şəklində hərəkəti davam etdiriblər. Vəngli kəndi yaxınlığında ikinci pusquya düşərək son nəfəslərinədək mərdliklə vuruşan 11 nəfər hərbi qulluqçumuz ərazidə şəhidlik zirvəsinə ucalıb, orada ağır yaralanan polkovnik-leytenant R.Hüseynov və 3 nəfər döyüşçü sağ qalıblar, lakin dəstə komandiri növbəti gün hərbi qospitalda şəhadətə yüksəlib. Bu hücumun sonu olaraq aldığı əks zərbə nəticəsində düşmən geri çəkilib.

Samirin üzərində ayrı-ayrı mülki xəstəxanalarda cərrahiyyə əməliyyatları aparılıb, Daxili Qoşunların Hərbi Qospitalında müalicə kursu keçib. Aldığı yaraların fəsadları nəticəsində sağ qolunda dirsək oynağı və əl barmaqları hərəkətsizləşib. Qolunda xırda qəlpələr qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq Sərəncamı ilə əsgər S.Mirzəyev "İgidliyə görə" medalı ilə təltif edilib.

2024-cü ilin oktyabr ayında Samir səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından istefaya buraxılıb. Daxili Qoşunların Baş İdarəsinin Tibb xidmətinin hərbi-həkim komissiyası tərəfindən verilən xəstəlik haqqında şəhadətnamədə onun həm dinc, həm də müharibə dövründə hərbi xidmətə yararsız olduğu barədə qeydlər öz əksini tapıb.

O, hazırda 2-ci qrup əlil kimi pensiya alır. Müalicəsini davam etdirir. Öz nəslində yeganə qazidir. Gülxar xanımla evli olan qazinin Nəzrin və Ayla adlı qızları var, onlar məktəblidirlər. El-obasına, ailəsinə qalib döyüşçü kimi qayıdan, sağlamlığını itirsə də ruhdan düşməyən Samir "müqəddəs Vətənimizə canım da fədadır" deyir.

**Yalçın Abbasov**

4_Layout 1 12.02.2025 15:50 Page 1



# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ HƏRBİ İNSTİTUTUNA 2025/2026-CI TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutuna qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) sırasından seçilirlər.



Namizədlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - çəkisi 80 kq-dək - 10 dəfə və çəkisi 80 kq-dan yuxarı - 8 dəfə, qaçış - 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə, qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi - 20 dəfə, gövdənin döşəmədən qaldırılıb-endirilməsi - 20 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanlarında iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutuna qəbul olunmuş şəxslər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. İnstitutda tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

İnstitutu müvəffəqiyyətlə bitirmiş məzunlara "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və "leytenant" hərbi rütbəsi verilərək, onlar Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2025-ci ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutuna qəbul edilmirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutuna qəbul üçün namizədlər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, R.Hüseynov küçəsi, 4) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və 2 nüsxədə notarial qaydada təsdiq olunmuş surəti);
- yaxın qohumlarının (ata, ana, qardaş, bacı) 2 nüsxədə şəxsiyyət vəsiqələrinin notarial qaydada təsdiq edilmiş surətləri;
- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında arayış və ya tam orta, texniki peşə, orta ixtisas təhsili haqqında sənəd (attestatın, diplomun əsli və 2 nüsxədə notarial qaydada təsdiq edilmiş surəti);
- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);
- oxuduğu təhsil müəssisəsi tərəfindən verilmiş xasiyyətnamə;
- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (baş geyimsiz, rəngli, donuq kağızda);
- yaşayış yeri və ailə tərkibi haqqında arayış, 2 nüsxədə.

İnstituta namizədlərin ərizə və sənədlərinin qəbulu 2025-ci ilin mart ayının 1-dən aprel ayının 20-dək (bazar və bayram günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcəkdir.

**Məlumat üçün əlaqə telefonları:** (012) 560-27-00, (012) 513-23-06, (012) 590-65-38.

# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır.



25032 saylı hərbi hissənin ərzaq xidmətinin rəisi kapitan Faiq Məcidov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Kapitan F.Məcidov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq şəxsi heyətin qida rasionuna mövsümi salatlar və meyvə şirələri daxildir, xüsusilə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə soğan, sarımsaq kimi faydalı tərəvəzlər də əlavə olunur.

Zabit görülən işlərdə baş çavuş Kənan İmanovun zəhmətini xüsusilə vurğuladı. Onun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə hazırlanmasında aşpazlardan Səbinə Məmmədova, Gülbəniz Məmmədova, Məlahət Heydərova və əsgər Əliheydər Niftəliyevin fəaliyyətlərini müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

# BAŞLICA MƏQSƏD HƏRBİ QULLUQÇULARIN SAĞLAMLIQLARININ KEŞİYİNDƏ DURMAQDIR

Psixonevrologiya şöbəsi peşəkar tibb personalı ilə Daxili Qoşunların Hərbi Qospitalının seçilən şöbələrindəndir. Şöbə rəisi tibb xidməti mayoru Şükufə Məmmədova öz bilik və bacarığı, eyni zamanda tələbkarlığı ilə fərqlənən hərbi qulluqçulardandır. 2011-ci ildən Daxili Qoşunların sıralarındadır. Müxtəlif vəzifələrdə xidmət edib. 2023-cü ildən psixonevrologiya şöbəsinin rəisidir. Müxtəlif kurslara cəlb olunan hərbi həkim nəzəri və praktik cəhətdən biliklərini təkmilləşdirib.



Tibb xidməti mayoru Ş.Məmmədova bildirdi ki, bu gün xəstələrə diaqnozların vaxtında və dəqiq qoyulması üçün Daxili Qoşunların Hərbi Qospitalında müasir avadanlıqlar mövcuddur. Eləcə də psixonevrologiya şöbəsinə qəbul olunan xəstələrdə bu aparatların köməyi ilə epileptik ocaqların olub-olmadığını asanlıqla müəyyən etmək mümkündür.

Söhbət zamanı epilepsiya xəstəliyi haqqında məlumat verən şöbə rəisi söylədi ki, bu xəstəlik nevroloji patologiya, müəyyən sindromlar zamanı şəxsiyyətin dəyişilməsinin xüsusi tipi və psixi pozuntularla müşayiət edilən müxtəlif etiologiyalı heterogen xəstəlik qrupudur.

Epilepsiya xəstəliyinin müalicəsinə gəldikdə isə tibb xidməti mayoru Ş.Məmmədova bildirdi ki, uzunmüddətli dərman müalicəsi aparıldıqda tutmaların sayında azalma müşahidə oluna bilir, həmçinin şiddəti də azalır: "Lakin dərmanlar nizamlı şəkildə atılmalı, yarıda kəsilməməlidir. Çünki dərmanların anidən, yarıda kəsilməsi daha ağır durumların yaranmasına səbəb ola bilər. Xəstələrin təxminən 70-75 faizində epileptik tutmaları nəzarətdə saxlamaq üçün tək bir dərman kifayət edərkən, bəzi hallarda bir neçə dərmandan istifadə olunur. Xəstəliyin tam olaraq qarşısını almaq mümkün deyil, lakin əgər xəstəlik erkən yaşlarda yaranarsa, uzunmüddətli və tam müalicə aparılarsa, xəstəliyə tam qalib gəlmək olar".

Yuxarıda sadalananlarla yanaşı, müalicə zamanı xəstələrin yuxu və qida rejiminə riayət etmələrinin də vacibliyi əsas məqamlardan biridir.

Hərbi Qospitalın qabaqcıl şöbələrindən biri kimi müsbət xarakterizə olunan psixonevrologiya şöbəsinin nümunəvi hərbi qulluqçularından baş gizir Səadət Nəbiyeva, baş çavuş Elbrus Hacılı və mülki həkim-nevropatoloq İlqar Ağamalıyevin xidməti fəaliyyətləri şöbə rəisi tərəfindən layiqincə qiymətləndirilir.

**kapitan Nigar Ağayeva**

# MİNNƏTDARLIQ

**Hörmətli redaksiya!**

Bu yaxınlarda səhhətimdə yaranmış problemlərlə əlaqədar Daxili Qoşunların Hərbi Qospitalına qəbul olunaraq müayinə və müalicə olundum. Qospitalın tibb personalının böyük zəhməti hesabına qısa müddət ərzində sağalaraq yenidən xidmət yerinə qayıtdım.

Buna görə də Azərbaycanın əməkdar həkimi, 12576 saylı hərbi hissənin komandiri tibb xidməti polkovniki Şəmsəddin Heydərov başda olmaqla qospitalın komandanlığına, funksional diaqnostika şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Vəsilə Əsgərovaya, anesteziologiya və reanimasiya şöbəsinin rəisi VİE tibb xidməti kapitanı Dilbər Məmmədovaya, terapiya şöbəsinin həkim-kardioloqu Şahin Hüseynova, o cümlədən baş tibb bacısı baş gizir Vəfa Ağayevaya dərin minnətdarlığımı bildirir, bütün kollektivə bundan sonrakı xidməti fəaliyyətində uğurlar arzulayıram.

**polkovnik Amid Məmmədov**

*NÜMUNƏVİ XİDMƏT*

# LAYİQLİ XİDMƏT MƏSULİYYƏT HİSSİNDƏN İRƏLİ GƏLİR

64412 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş İsa Mahmudov 1997-ci il iyulun 22-də Şabran şəhərində doğulub. Şabran şəhərinin 3 saylı tam orta məktəbinin məzunudur. 2015-2017-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Əsgəri xidmətini başa vurduqdan sonra həyatını hərbi xidmətə bağlamağı arzulayan İsa elə bu istəklə 2017-ci ildə Daxili Qoşunların 64412 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub.



Hazırda hərbi hissənin silah anbarlarının anbar rəisi vəzifəsində xidmətini ləyaqətlə davam etdirir.

Anbarlarda olan maddi-texniki vəsaitlərin düzgün mədaxil-məxaricinə, onların buraxılması üzrə sənədlərin tərtib edilməsinə, uçotun dəqiq aparılmasına, daxili qaydalara riayət olunmasına, sanitar vəziyyətə, yanğından mühafizəyə və ümumilikdə bütün təhlükəsizlik tədbirlərinin görülməsinə cavabdehdir.

Hərbi hissə komandanlığının etimadını doğruldaraq funksional vəzifələrinin icrasına vicdanla yanaşan baş çavuş İ.Mahmudov verilən tapşırıqları vaxtında və düzgün yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.

**kapitan Şahin Cəfərzadə**

# ŞƏHİD ATASININ ADINI UCA TUTAN BAŞ ƏSGƏR

12318 saylı hərbi hissənin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Aqil Həsənov 2006-cı il yanvarın 28-də Bərdə rayonunun Qarademirçi kəndində doğulub. 2012-2023-cü illərdə Bərdə rayonu Xanağalı kəndində yerləşən Ələddin Dadaşov adına tam orta məktəbdə təhsil alıb. Özünün dediyinə görə, uşaqlıqdan əvvəlcə həvəskar, sonra isə peşəkar səviyyədə idmanın qaydasız döyüş (MMA) növü ilə məşğul olub. 8 il idmançı kimi özünü sınayan Aqil respublika çempionatlarında 4 dəfə birincilik qazanıb.



Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmətə 2024-cü ilin yanvar ayından başlayıb. Hazırda 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin təminat manqasının baş atıcısı vəzifəsindədir. O, hərbi xidmət borcunu vicdanla yerinə yetirir, verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşır.

Vətənə, dövlətə xidmətin hər bir insan üçün qürurverici olduğunu düşünən baş əsgər A.Həsənov gələcək həyatında da öz əqidəsinə sadiq qalacağını və daxili işlər orqanlarında xidmət etmək istədiyini diqqətə çatdırdı.

Vətənə sevgisi ona atası Azər Həsənovdan keçib. Qeyd edək ki, Vətən müharibəsi zamanı Müdafiə Nazirliyinin hərbi qulluqçusu kimi döyüş əməliyyatlarına qatılan çavuş Azər Həsənov Suqovuşan istiqamətində gedən qızğın döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhadətə ucalıb. Bu cür cəsur atanın məhz Aqil kimi layiqli davamçısı var.

Daxili Qoşunların əsgəri olduğu üçün qürur duyan baş əsgər A.Həsənov hər addımında atasına layiq olmağa çalışır. O həm də qalib ölkənin əsgəri olmağın sevincini yaşayır. Nümunəvi xidmət, yüksək hərbi intizam nümayiş etdirdiyinə görə hərbi hissə komandiri tərəfindən mükafatlandırılıb.

**kapitan Nigar Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR

*- YENİLİKLƏR -*

## Rusiyanın yeni zenit-raket kompleksi IDEX-2025 sərgisində təqdim olunacaq

"Kalaşnikov" konserni 17-21 fevral tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçiriləcək IDEX-2025 beynəlxalq müdafiə sənayesi sərgisində ilk dəfə olaraq yeni "Krona-E" zenit-raket kompleksini (ZRK) təqdim edəcək.




"Poliqon" "Kalaşnikov"a istinadən xəbər verir ki, qısamənzilli ZRK olan "Krona-E" mühüm dövlət obyektlərini, o cümlədən şəhər və xüsusi əhəmiyyət kəsb edən yerləri hava zərbələrindən qorumaq üçün nəzərdə tutulub.

# Allah rəhmət eləsin

67987 saylı hərbi hissənin komandanlığı çavuş Aynur Əhmədovaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**